# Qitənin nəbzi Azərbaycanda vurur

Zəngin keçmişə malik Azərbaycanın tarixi salnaməsində yeni səhifə açılır. Dünyanın diqqətlə izlədiyi I Avropa Oyunlarına ev sahibliyi edən müstəqil respublikamız ən mötəbər tədbirlərin də təşkilatçısı kimi bütün imkan və potensiala malik olduğunu inamla təsdiq edir. Tarixdə ilkə imza atan bu yarışlar zamanı qitənin nəbzi ölkəmizin paytaxtı Bakıda döyünəcək. Bu möhtəşəm tədbirin bəxş etdiyi sevinc və qürurunu yaşayırıq. Buna görə möhtərəm Prezidentimiz İlham Əliyevə, I Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyevaya minnətdarıq. I Avropa Oyunlarının yüksək səviyyədə keçirilməsi üçün Azərbaycanda qısa müddət ərzində çox böyük işlər görülüb, hazırlıqla əlaqədar bütün idman obyektləri, yol infrastrukturu, nəqliyyat və otellər ən yüksək standartlara cavab verən şəraitlə təmin olunub. “Atəşgah” məbədindən alovlandırılan məşəl estafeti respublikamızın bütün bölgələrində, paytaxtda Avropa Oyunlarının əzəmətini hamıya yaşatdı. Bayramsayağı, ellikcə, coşqu ilə məşəl estafetinin qarşılanması xalqımızın tarixini, zənginliyini, adət və ənənələrimizin, qonaqpərvərliyimizin, ən əsası isə vətənpərvərliyimizin əyani nümayişinə çevrildi. Ölkə başçısının da qeyd etdiyi kimi, birinci Avropa Oyunlarına ev sahibliyini üzərinə götürmək ölkəmiz üçün həm böyük etimad, həm də böyük məsuliyyətdir. Eyni zamanda bu, Azərbaycana beynəlxalq səviyyədə göstərilən marağın təzahürü kimi dəyərləndirilməlidir. Müstəqil respublikamızın dinamik inkişafı, cəmiyyət həyatının bütün sahələrində əldə olunmuş mühüm uğurlar, beynəlxalq arenada yürütdüyümüz müstəqil fəal siyasət ölkəmizin nüfuzunu daha da yüksəltmişdir. Həmçinin həyata keçirilmiş nəhəng quruculuq və abadlıq işləri nəticəsində Bakı dünyanın ən gözəl, ən müasir şəhərlərindən birinə çevrilmişdir. Möhtərəm Prezidentimiz demişdir: “Ümid edirəm ki, Bakı qonaqlar və idmançılar üçün gözəl məkan olacaqdır. Azərbaycan həm də beynəlxalq Olimpiya hərəkatının fəal üzvlərindəndir. İdmançılarımızın mötəbər beynəlxalq turnirlərdə qazandığı uğurların sayı ildən-ilə artır. Azərbaycanın əksər bölgələrində müasir standartlara uyğun Olimpiya kompleksləri, digər idman qurğuları yaradılmışdır. Bu, həm də Azərbaycanda idmanın kütləviliyini şərtləndirən mühüm amillərdəndir”.

Belə mötəbər yarışların məhz Bakıda keçirilməsinin əhali tərəfindən həmişə yüksək səviyyədə dəstəklənməsinin də əhəmiyyəti böyükdür. Müxtəlif beynəlxalq idman yarışlarının Bakıda təşkil olunması ilə bu dəstəyin şahidi olmuşuq. Möhtərəm Prezidentimizin vurğuladığı kimi, Azərbaycan iki dəfə öz namizədliyini Yay Olimpiya Oyunlarının keçirilməsi üçün vermişdir. O zaman rəy sorğuları keçirilmiş və bu sorğuların yekunu təsdiq etmişdir ki, Azərbaycan xalqı Olimpiya Oyunlarının Bakıda keçirilməsini arzulayır.

Avropa idman ailəsinin ölkəmizə göstərdiyi etimadın təməlində, eyni zamanda, idmançılarımızın uğurları da böyük rol oynamışdır. Bu da real faktdır ki, Azərbaycan bu gün dünyada və Avropada idman ölkəsi kimi tanınır. İdmançılarımız həm Avropa, həm də dünya çempionatlarında, Olimpiya Oyunlarında böyük uğurlar qazanıblar. İdmanın elə növləri var ki, bizim idmançılar yüksək reytinqli hesab olunurlar. Təkcə onu demək kifayətdir ki, London Yay Olimpiya Oyunlarında Azərbaycan tarixi qələbə - 10 medal qazanmışdır. İnanırıq ki, ilk Avropa Oyunlarında hamımızın güvəndiyimiz idmançılarımız bu uğurlu göstəricini daha da artıracaqlar.

İdman kütləvi maraq dairəsində olmasına baxmayaraq, gənclərin bayramı kimi qəbul olunur. Şirkətimiz də gənclərlə işləyir. Fəaliyyətimiz xaricdə təhsillə bağlı olsa da, idman hərəkatına dəstək verilməsinə xüsusi diqqət yetiririk. Özümüzün



komandamız var, ənənəvi olaraq müxtəlif yarış və turnirlər təşkil edirik. Şirkətimiz dünyanın yetmiş beş ölkəsinin ən mötəbər təhsil müəssisələri ilə əməkdaşlıq əlaqələri qurub. Orada daimi nümayəndəliyimiz və bəzilərində ofislərimiz fəaliyyət göstərir. Biz də I Avropa Oyunlarına dəstək vermək üçün kampaniyalar təşkil edib, Azərbaycanı təbliğ edib, ölkəmizə dəvət etmişik. Hamımız bu mötəbər yarışların keçirilməsində fəallıq nümayiş etdirməliyik, bu həm də bizim vətəndaş kimi mənəvi borcumuzdur. İndi bütün dünyanın diqqət mərkəzində olan ilk Avropa Oyunlarının tarixin ən yaddaqalan anları olacağına əminik.

**Kənan CƏLİLOV,**
**“Aki-İnter” şirkətinin təsisçisi və rəhbəri.**